<table>
<tr><td rowspan="7">Ümumi məlumat</td><td>Fənn</td><td colspan="2">ECON 101 İqtisadiyyata giriş, 3KU credit /6ECTS</td></tr>
<tr><td>Departament</td><td colspan="2">İqtisadiyyat və Menecment</td></tr>
<tr><td>Proqram</td><td colspan="2">Bakalavr</td></tr>
<tr><td>Semestr</td><td colspan="2">2024/25-ci tədris ilinin payız semestri</td></tr>
<tr><td>Müəllim</td><td colspan="2">Sara Hüseynova</td></tr>
<tr><td>E-mail</td><td colspan="2">huseynova.sara@khazar.org</td></tr>
<tr><td>Otaq/saat</td><td colspan="2"></td></tr>
<tr><td>Prerekvizitlər</td><td colspan="3">Yox</td></tr>
<tr><td>Dil</td><td colspan="3">Azərbaycan</td></tr>
<tr><td>İcbari/Seçmə</td><td colspan="3">İcbari</td></tr>
<tr><td>Dərsliklər və kurs materialları</td><td colspan="3">Əsas ədəbiyyat:<br>Ekonomiksin əsasları. N.Q.Menkyu. Bakı, 2023.<br>Əlavə ədəbiyyat:<br>1. Principles of Economics. S.Greenlaw, T.Taylor. Rice University. 2019.<br>2. Introduction to Economics. O.Birchall. LSE, 2020.</td></tr>
<tr><td>Kursun məzmunu</td><td colspan="3">Cəmiyyət həyatının ən mühüm sahələrindən biri kimi iqtisadiyyatın öyrənilməsinin zəruriliyi onun insanların həyatında, bəşəriyyətin inkişafında oynadığı əvəzsiz rolu ilə bağlıdır. Müstəqil mövcud olub inkişaf etməyə qadir olan iqtisadiyyat formalaşdırmaq üçün ilknövbədə onun nəzəri əsaslarını öyrənmək lazımdır. İqtisadiyyata giriş fənninin tədrisi zamanı məhz bu vəzifənin yerinə yetirilməsi üçün iqtisadi biliklərin meydana gəlməsinin inkişaf mərhələləri, tarixi genetik əsasları, elmi-metodoloji prinsipləri, iqtisadi kateqoriya və qanunların məzmunu və fəaliyyət mexanizmləri, müasir dövrdə sosial-iqtisadi inkişaf modelləri və onların əsas istiqamətləriöyrənilir.Gənc nəslin iqtisadi təfəkkürünün formalaşdırılması üçün müstəqil milli iqtisadiyyatın formalaşması və inkişaf meyllərinin, müxtəlif iqtisadi məktəblərin, cərəyanların müddəaları və ideyalarının qarşılıqlı surətdə əlaqələndirilməsi, müasir dövrdə iqtisadi qanunların fəaliyyət mexanizmlərindən, tələb və prinsiplərindən, təsərrüfatçılıq mexanizmlərindən, sosial-iqtisadi inkişaf strategiyasından səmərəli istifadə olunması və onların hər birinin spesifik cəhətlərinin, xüsusiyyətlərinin dərk edilməsidir.</td></tr>
<tr><td>Kursun məqsədi</td><td colspan="3">Kursun əsas məqsədi tələbələrə iqtisadi analizin əsas anlayışlarını və alətlərini öyrətməkdir. Ümumi olaraq, tələbələrdə real dünyanın problemlərinə “iqtisadi” yanaşma bacarığının formalaşdırılmasıdır. Kurs boyunca iqtisadiyyata giriş, mikroiqtisadiyyat və makroiqtisadiyyat haqqında əsas anlayış və prinsiplər öyrədiləcək, müasir iqtisadi biliklərin mənimsənilməsi üçün vacib hesab edilən iqtisadi anlayış, kateqoriya, hadisə və qanunların şərhi veriləcəkdir.</td></tr>
<tr><td>Öyrənmə nəticələri</td><td colspan="3">Kursu uğurla tamamlayan tələbələr sonda aşağıdakı bacarıqlara yiyələnəcəklər:<br>- baza iqtisadi anlayışları və onların qarşılıqlı əlaqəsini öyrənmək;<br>- iqtisadi subyektlərin davranış prinsiplərini anlamaq;<br>- iqtisadi nəzəriyyənin bir çox əsas anlayışlarını şərh etmək;<br>- iqtisad elminin əsas metodlarından və alətlərindən istifadə etmək;<br>- iqtisadi hadisə və proseslərn məzmun və formal təhlili vərdişlərinə yiyələnmək;<br>- bazarın işləmə mexanizmini dərk etmək;<br>- iqtisadi subyektlərin qərar qəbul etmə prinsiplərini mənimsəmək;<br>- bəzi dövlət siyasəti məsələlərinə iqtisadi prinsipləri tətbiq etmək;<br>- mikroiqtisadiyyatın prinsiplərini, kateqoriyalarını və anlayışlarını öyrənmək;<br>- makroiqtisadiyyatın prinsiplərini, kateqoriyalarını və anlayışlarını öyrənmək;<br>iqtisad elminin müasir istiqamətlərinə (davranış iqtisadiyyatı, bilik iqtisadiyyatı, institusional iqtisadiyyat, yaşıl iqtisadiyyat, inkişaf iqtisadiyyatı, səhiyyə iqtisadiyyatı və s.) dair biliklər əldə etmək.</td></tr>
<tr><td rowspan="5">Tədris metodları</td><td colspan="2">Keys təhlili</td><td>x</td></tr>
<tr><td colspan="2">Qrup müzakirəsi</td><td>x</td></tr>
<tr><td colspan="2">Mühazirə</td><td>x</td></tr>
<tr><td colspan="2">Problem həll etmə</td><td>x</td></tr>
<tr><td colspan="2">Digər</td><td>x</td></tr>
<tr><td rowspan="5">Qiymətləndirmə meyarları</td><td>Metodlar</td><td>Son tarix</td><td>Faiz (%)</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Elan ediləcək</td><td>30</td></tr>
<tr><td>Quiz</td><td>6 həftə , 12 həftə</td><td>10</td></tr>
<tr><td>Esse/təqdimat</td><td>15 həftə</td><td>10</td></tr>
<tr><td>Davamiyyət</td><td></td><td>5</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | **Aktivlik** | | 5 |
| | **Final imtahanı** | Elan ediləcək | 40 |
| | **Yekun** | | 100 |

| | |
|---|---|
| **Siyasət** | **Davamiyyət**<br>Bu hissədə bal tələbənin dərsə davamiyyətinə görə veriləcəkdir. Tələbə hər bir dərsdə iştirak etməlidir.<br>**Aktivlik**<br>Bu hissədə bal tələbənin aktivliyinə əsasən veriləcəkdir. Dərs zamanı müzakirələrdə iştirak etməli və suallara cavab verməlidir.<br>**Quiz**<br>Semestr ərzində tələbələrə 2 quiz təyin olunacaq. Quizin yekun mümkün qiyməti 10 bal təşkil edir. Quizlərin analitik mahiyyətdə olmaqla əsasən açıq suallardan ibarət olacaq və tələbələrdən tədris olunmuş nəzəri biliklərin, konsepsiyaların tətbiqini tələb edəcək.<br>**Esse/təqdimat**<br>Tələbələrə müxtəlif iqtisadi mövzular təqdim olunacaq. Hər bir tələbə seçdiyi bir mövzu üzrə esse hazırlayacaqdır. Esse analitik xarakter daşımalı, müəllifin yanaşmasını əks etdirməlidir (plagiat olmamalı). Essenin məntiqi strukturu “giriş”, “əsas hissə” və “nəticə”dən ibarət olmalıdır. Sonda hər bir tələbənin essesinin təqdimatı və qrup müzakirəsi keçiriləcəkdir. |

**Tematik plan**

| Hə | Tarix | Mövzular | Dərslik/Tapşırıq |
|---|---|---|---|
| 1 | | İqtisadi nəzəriyyənin predmeti və metodu | Fəsil 1 |
| 2 | | İstehsal, onun mahiyyəti və amilləri | Fəsil 2 |
| 3 | | Tələb və təklif. Bazar tarazlığı | Fəsil 3 |
| 4 | | Tələbin elastikliyi və ona təsir göstərən amillər | Fəsil 4 |
| 5 | | Əmtəə istehsalı və pul. | Fəsil 5 |
| 6 | | Bazar iqtisadiyyatı və onun əsas cəhətləri / **Quiz 1** | Fəsil 6 |
| 7 | | **Aralıq imtahanı** | Fəsil 7 |
| 8 | | Makroiqtisadi tarazlıq. | Fəsil 8 |
| 9 | | İqtisadi artım və səmərəlilik | Fəsil 9 |
| 10 | | İnflyasiya və onun tənzimlənməsi. Məşğulluq və işsizlik | Fəsil 10 |
| 11 | | Pul-kredit siyasəti və onun əsas funksiyaları. | Fəsil 11 |
| 12 | | İqtisadiyyatın dövlət tənzimlənməsi/ **Quiz 2** | Fəsil 12 |
| 13 | | Büdcə və vergilər | Fəsil 13 |
| 14 | | İqtisadi hesablamalar **(praktik məşğələ).** Keyslərlə makroiqtisadi analiz. | Fəsil 14 |
| 15 | | Dünya ticarəti və tədiyyə balansı | Fəsil 15 |
| | | **Final imtahanı** | |